Selcan KƏRİMLİ,
*"Gənc istedadlar" liseyinin 7-ci sinif şagirdi*



# QARABAĞSIZ 28 İL...

Qarabağsız 28 il... 28 saat yox, 28 gün yox, 28 ay yox, tam 28 il Qarabağsız qaldı Azərbaycan xalqı. O xalq ki, öz doğma evlərindən zorla, insafsızca çıxarılarkən sona qədər düşmənlə savaşdı, bir an belə doğulub böyüdüyü torpaqları buraxıb getmək istəmədi. O xalq ki, ölümü saya salmadı, canını önəmsəmədi, "Təki öz yurdumuzda qalaq, Vətənimiz düşmən əlinə keçməsin" deyərək ayaqlarını yerə bərk dirədi. Lakin zalım, namərd düşmən buna imkan vermədi. Qadın, uşaq demədən minlərcə azərbaycanlını qətlə yetirdilər, yüzlərlə insanı əsir götürdülər. Vətənini öz canından çox sevən insanlar doğma torpaqlarından köçkün düşmək məcburiyyətində qaldılar. 28 il boyunca öz dədə-baba yurdlarından ayrı qalsalar da, bir an belə əziz Vətənlərini unutmadılar. Hər vaxt ümidlə gözlədilər. Əmin idilər ki, bir gün mütləq öz doğma yurdlarına qayıdacaqlar, xarı bülbülün gözəl ətrini duyacaqlar, bumbuz bulaqlardan su içəcəklər, başı qarlı dağları, səfalı meşələri gəzəcəklər. Təəssüflər olsun ki, nənə-babalarımız, el ağsaqqalları, el ağbirçəkləri yurd həsrəti ilə, öz torpaqlarına qovuşmadan bu dünyadan köçüb getdilər. Amma qəlbdən gələn bayatıları, şeirləri, nəğmələri dillər əzbəri oldu, dildən-dilə keçərək onları yaşatdı. Belə qəlbdən gələn bayatılardan biri də babamın rəhmətlik anasının yazdığı bu bayatıdır:

Gedərəm gedən olsa,
Yolu öyrədən olsa,
Mən də qoşulub gedərəm,
Qarabağa gedən olsa.

Ən böyük həsrət Vətən həsrəti, ən təsirli nəğmə isə həsrət nəğməsidir. Qarabağdan köçkün düşmüş həmvətənlərimiz nəğmələrini böyük Vətən həsrəti ilə oxuyurdular. Ona görə onların səsi bu qədər şirin, bayatıları, şeirləri bu qədər təsirlidir.

Vətən həsrəti ən böyük dərd imiş. Mən bir qarabağlı olaraq bunun şahidiyəm. Bizim ailədə valideynlərim, babam, nənəm həmişə Qarabağdan danışdıqları üçün mən özümü orada olmuş, o tor-

paqları görmüş kimi hiss edirəm. Və onlarla birlikdə hər zaman Qarabağın həsrətini çəkirdim, ona qovuşacağımız günü səbirsizliklə gözləyirdim.

Başqa valideynlər də mənim valideynlərim kimi öz övladlarına daim Vətən sevgisi aşılayırdı. Onlara haradan gəldiklərini deyirdi, gəldikləri yerin necə gözəl olduğundan danışırdı. Doğma yurdlarının hara olduğunu nə özləri unudurdu, nə də övladlarına unutdururdular. Uşaqlar böyük Vətən sevgisi ilə böyüyürdülər. Valideynlərinin danışdığı o cənnətməkan Qarabağı öz gözləri ilə görməyə can atırdılar.

Elə həmin uşaqlar idi 2020-ci il 27 sentyabr Vətən müharibəsinin başladığı dövrdə Vətən sevgisi ilə tərəddüd etmədən irəli atılıb namərd düşməni məhv edən. Onlar hər dəfə atəş açarkən 28 il bundan əvvəl ata-anasının qovulduğu o yurdu düşünürdülər. Bu doğma torpaqlarımıza qovuşmaq üçün "Öldü var, döndü yoxdur!" – deyirdilər. Bütün əsgərlərimizin tək bir amalı var idi: Doğma Vətənin bütün torpaqlarını işğaldan azad etmək. Onlar igidliklə, qəhrəmancasına vuruşurdular. Bu qəhrəmanlarımızın bir çoxu torpaq uğrunda savaşıb qazi oldu, 2855 cəngavərimiz isə həyatını itirib şəhidlik zirvəsinə ucaldı.



Şəhidlərimiz... Onlar hər kəsə nəsib olmayan yerdədirlər, haqqın dərgahında, cənnətdə. "Vətən sağ olsun!" – deyərək öz canlarını qurban verdilər. Biz onların borclarını heç cür ödəyə bilmərik, şəhidlərimizin borcu ödənilməzdir. Onların igidliyini Azərbaycan xalqı heç vaxt unutmayacaq və onları daim qəlbində yaşadacaq. Bayrağımız şəhidlərimizin məzarları başında həmişə qürurla dalğalanacaq. Gələcəkdə şəhidlərimizin övladları atalarının necə şərəfli, müqəddəs bir iş uğrunda öz canını fəda etdiyini öyrənəndə böyük fəxr hissi keçirəcəklər. Artıq şəhidlərimiz məzarlarında rahat yata bilərlər. Çünki uğrunda canlarından keçdikləri Qarabağ tamamilə azaddır. İşğal edilən torpaqlarımız şanlı əsgərlərimiz sayəsində artıq bizimdir. Bundan sonra qarabağlılar öz nəğmələrini həsrət ilə yox, sevinclə oxuyacaqlar. Bu illər ərzində torpaqlarına qovuşmaq üçün göz yaşı tökənlər bundan sonra sevinc göz yaşları axıdacaqlar. 28 illik həsrət sona yetdi. Artıq öz torpaqlarımıza qovuşduq. O cənnət məkanlar yenidən bizim oldu. Bütün dünya Azərbaycan xalqının, Azərbaycan ordusunun gücünün və dəmir yumruq kimi birləşib birlik olmasının şahidi oldu. Anladılar ki, Azərbaycan xalqı bir olduqca heç kim onu sarsıda, məğlub edə bilməz.

Bizə bu sevincli günləri yaşatdığı üçün Ali Baş Komandanımızla, sarsılmaz, şanlı ordumuzla fəxr edirəm. Mən çox xoşbəxtəm ki, türkəm, azərbaycanlıyam, azad Qarabağın övladıyam!

Böyük hiss və həyəcanla, kövrələrək yazdığım essemi Ali Baş Komandanın söylədiyi bu şanlı sözlər ilə bitirmək istəyirəm:

"Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir! Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!”